

# Elimizdən, günümüzdən

**Şifahi xalq yaradıcılığımız sehirli bir çeşməni, tükənməz xəzinəni xatırladır. Onun sabitliyi yalnız bədii dəyəri ilə deyil, həm də folklor nümunələrinin əsas yaradıcısı hesab olunan xalqın həyat tərzi, dünyagörüşü və estetik zövqündəki dəyişikliklə izah edilir.**

**Əsrlərdən-əsrlərə, nəsillərdən-nəsillrə keçən xalq yaradıcılığının bəzi janrları zaman-zaman dəyişikliyə uğramış, tədricən sıradan çıxmış, yeni janrlar yaranmışdır.**

**Sonralar onların əksəriyyəti yazıya alınıb "Bayatılar", Atalar sözü", "Tapmacalar", "Nağıllar", "Dastanlar", "Əsatirlər" və s. başlığı altında kitab şəklində nəşr edildi.**

Bununla belə hələ də nənə-babalarımızın yaddaşında əbədi iz salan, vaxtı ilə böyüklərindən eşitdikləri nə qədər folklor nümunələri vardır. Onları toplamaq, ciddi təhlil etmək və xalqın özünə qaytarmaq hər birimizin, xüsusilə mütəxəssislərin vətəndaşlıq borcudur.

Bu mənada, sazlı-sözlü el kimi tanınan qədim Qazax mahalının "2010-cu il üçün Azərbaycanın Folklor Paytaxtı" elan olunması xüsusi önəm kəsb edir.

Bu münasibətlə bölgədə rəngarəng tədbirlər keçirilir, görüşlər təşkil olunur. Diqqətinizə verdiyimiz şəkillər həmin tədbirlərdə lentə köçürülmüşdür.

Düşünürük ki, şair-publisist Kazım Kazımlının topladığı, sırf Qazax camaatına, İncə dərəsinə məxsus nümunələri sonsuz maraqla qarşılayacaqsınız. Belə ki, onların əksəriyyəti ilk dəfədir yazıya alınır.

Həmişə maraqlı yazıları ilə oxucularımızın görüşünə gələn Kazım Kazımlı bu dəfə də adətinə xilaf çıxmadı. Məhsuldar yaradıcılığı ilə daim diqqət çəkən, digər zona müxbirlərimizdən fəallığı ilə seçilən K.Kazımlını "Qızıl qələm" mükafatına layiq görülməsi münasibətilə yaradıcı kollektivimiz və çoxsaylı oxucularımız adından təbrik edir, ona nəcib işlərində daha böyük uğurlar diləyirik!

**Yaşar VƏLİYEV**